

# ZƏLZƏLƏ HAQQINDA 10 SUAL 10 CAVAB

SAHIB ƏSƏDOV

# ZƏLZƏLƏ HAQQINDA
# 10 SUAL VƏ 10 CAVAB

**Müəllif: Sahib Əsədov**

**Mədinə. 2023.**

# Zəlzələ haqqında 10 sual və 10 cavab!

Bismilləh, əlhəmdulilləh, vas-Salətu vəs-Sələmu alə Rasulilləhi va alə Əlihi va Sahbihi Əcməin!

*Əziz həmvətənlərim, möhtərəm müsəlmanlar! Zəlzələ haqqında söhbətimiz aşağıdakı aspektlərdən olacaqdır:*

**1** - Zəlzələ haqqında qısa mövqe necə olmalıdır?
**2 -** Bu mövqeyimizin Quran və sünnətdən dəlilləri nələrdir?
**3 -** İslam alimləri zəlzələ haqda nələr deyirlər?
**4 -** Zəlzələ olduğu zaman nə etmək lazımdır?
**5 -** Axır zamanda zəlzələlər çoxalacaqmı?
**6 -** Zəlzələdən qorunmaq üçün xüsusi dua varmı?
**7 -** Namaz vaxtı zəlzələ olsa nə etmək lazımdır?
**8 -** Müsəlman zəlzələdən hansı hikmət və ibrətləri götürməlidir?

Zəlzələ haqqında bəzi "şübhələrə" aydınlıq:

**9 -** Nə üçün Nə üçün zəlzələlər ancaq müsəlmanlar olan yerlərdə baş verir?
**10 -** Nə üçün Allah uşaq və zəiflərin ölümünə icazə verir?

**İndi isə qeyd olunan sualların cavabına keçək:**

**Birinci sual: Zəlzələ haqqında qısa mövqe necə olmalıdır?**

**Cavab:** Bilmək lazımdır ki, zəlzələlər, günəşin, ayın tutulması və s. təbiət hadisələri Allahın iradəsi, izni ilə baş verir və bu hadisələr Allahın ayətlərindəndir. Uca Allah Qurani-Kərimdə buyurur: "Biz ayətləri yalnız qorxutmaq üçün göndəririk"[1]. Allah öz qüdrətinə dəlalət edən ayətləri göndərir ki, insanlar ibrət alsınlar, ayılsınlar. Böyük fəlakətlər gəlmiş yerlərdə sağ qalan insanlar həyatın mənasını başa düşür, bütün yığdıqları dünyalığın günahlar, asiliklər və şirk səbəbilə bir an içində yox ola biləcəyini anlayır və Allaha üz tutaraq tövbə edir. Onlara baxan digər bölgələrdəki insanlar üçün də bu bir xəbərdarlıq olur. İslam alimləri zəlzələnin şəri səbəbi haqqında "zəlzələlərin baş vermə səbəbi günahlar və asiliklərdir" deyə bildirirlər. Əgər fəlakətlərdə ölən insanlar mömindirlərsə, bu, onların günahlarına kəffarə və şəhidlik dərəcəsi olur. Müsəlmanın başına nə gəlirsə, onun üçün xeyir olur, hətta ayağına batan bir tikan belə onun günahlarına kəffarədir. Yox əgər zəlzələdə ölən kimsə kafirdirsə, bu onun üçün cəza (və ya əzab), sağ qalanlar üçün isə ibrət, öyüd-nəsihət və qorxutmadır (xəbərdarlıq mənasında).

---

[1] (İsra. 59).

**İkinci sual: Bu mövqeyimizin Quran və sünnətdən dəlilləri nələrdir?**

**Cavab:** Qeyd olundu ki, zəlzələnin şəri səbəbləri asiliklər və günahlardır. Zəlzələnin kövni qədərlə (və ya təbiətdə olan səbəbi) bağlı olan səbəbi haqda - Allahın iznilə - qarşıda danışacağıq.

**A) Quran ayələri:** Zəlzələlər uca Allahın ayətlərindən, qüdrət nişanələrindən olduğu üçün Allah qullarına xatırlatma edir və əzabını xatırladır, beləcə təkcə nemətlər içində Allahı unutmaqda olan qövm deyil, digər qövmlər də həmin zəlzələdən ibrət alırlar. Allah bu zəlzələlər vasitəsilə əzabından qorxudur (xəbərdarlıq edir), insanları pis əməllərdən çəkindirir.

Uca Allah buyurur: "Biz ayətləri yalnız qorxutmaq üçün göndəririk"[2]. Ayətlərdə zəlzələlərin insanların günahları ucbatından baş verməsi inkar edilmir, əksinə təsdiqlənir. Bəzi insanlar isə bu ayətləri nədənsə görməzdən gəlirlər.

Uca Allah buyurur: ""De: “Allah başınızın üstündən və ya ayaqlarınızın altından sizə əzab göndərməyə, ya da sizi qarışıqlığa salıb dəstə-dəstə etməyə və birinizə digərinin gücünü daddırmağa qadirdir.” Gör ayələrimizi necə izah edirik ki, bəlkə başa düşsünlər"[3].

---

[2] (İsra. 59).
[3] (Ənam. 65).

Başqa bir ayədə isə uca Allah belə buyurur: "İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, Allah onlara etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar haqqa qayıdalar"[4].

Bir ayətdə də buyurur: "Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız günahlar üzündəndir. Allah günahların çoxunu bağışlayır. Siz yer üzündə Allahdan yaxa qurtara bilməzsiniz. Allahdan başqa sizin nə bir himayəçiniz olar, nə də bir köməkçiniz"[5].

Bu mövzuda başqa ayətlər də var. Bu qədərilə kifayətlənirik.

**B) Hədis və rəvayətlərdə zəlzələ:** Peyğəmbər (صلى الله عليه وسلم) buyurmuşdur: "Bu ümmətin axırında (yerə) batma, surətin çevrilməsi və daş yağması baş verəcəkdir. (Aişə) dedi: Ey Allahın Elçisi, salehlər aramızda olduğu halda biz həlakmı olacağıq? Bəli, əgər pislik (günahlar) çoxalarsa"[6]. Bu hədisdəki məna cəmiyyətdəki müxtəlif günahların çoxalmasını ehtiva edir. Bəzi müxtəlif dərəcəli rəvayətlərdə zinanın yayılması, zinanın halal görülməsi də zəlzələnin səbəbləri arasında qeyd edilmişdir.

Digər nəql edilən rəvayətdə isə Allah Elçisi (صلى الله عليه وسلم) günahların bəzilərini sadalayaraq buyurmuşdur:

---

[4] (Rum. 41).
[5] (Şura. 30-31).
[6] (Səhih ət-Tirmizi. 2185).

"Musiqi alətlərinin meydana çıxdığı, musiqiçi qadınların çoxaldığı və sərxoşluq əmələ gətirən içkilərin içiləcəyi zaman"[7].

Başqa bir hədisdə "uçqun altında qalıb ölən kimsənin şəhid olması"na işarə edilir. Bu şəhidlik məqamında olan şəxs həqiqi döyüş meydanında olan şəhidliyi əldə etməsə də, şəkk yoxdur ki, onun hökmü şəhid hökmündədir. Çünki peyğəmbərimiz Muhəmməd (صلى الله عليه وسلم) uçqun altında qalaraq vəfat etmiş müsəlmanı da şəhidlərdən hesab etmişdir. Buxari və Müslimin rəvayət etdiyi hədisdə: "Beş qism insan şəhiddir: (onlar arasında qeyd edir ki) uçqun altında qalıb ölən şəhiddir"[8]. Zəlzələdə ölən şəxs də bu mənaya, uçqun altında ölən şəxsə aiddir.

Bir müsəlmanın ayağına batan bir tikanı Allah onun günahlarına kəffarə etməklə ona lütf etmişsə, görün indi böyük müsibət və ya fəlakətlər zamanı vəfat etmək müsəlman üçün necə bir kəffarə olur? Ələlxüsus da bu ölüm halı zəlzələ ilə gələrsə necə olar? Allahın Elçisi (صلى الله عليه وسلم) buyurmuşdur: "Ayağına batan bir tikan və ya başına gələn böyük bir sıxıntıdan dolayı müsəlmanın günahını Allah bağışlayar. O müsəlmanın günahları ağacın yarpaqları kimi tökülər"[9].

Ömər ibn Xəttabın (رضي الله عنه) xilafəti zamanında Mədinədə zəlzələ baş verir. Ömər deyir: "Ey insanlar! Bu

---

[7] (Sünən ət-Tirmizi. 2212).
[8] (Səhih əl-Buxari. 2829; Səhihi Muslim. 1914).
[9] (Buxari. Mərda. 3; Muslim. Birr. 45).

nədir? Nə tez bidət (yenilik və ya günah) etdiniz? Əgər bir daha bu baş verərsə, mən burada sizin aranızda yaşamayacağam"[10].

Ömər ibn Əbdül-Əzizdən (رحمه الله) rəvayət olunur ki: "O, zəlzələ baş verdiyi zaman öz məmurlarına tapşırıq vermişdi ki, (insanlara) sədəqə versinlər". Çünki sədəqə Allahın qəzəbini söndürür.

Saleh sələflərin (bizdən öncə gələn xeyir əhlinin) həyatına baxın, görün zəlzələ vaxtı onun hikmətini nədə görüblər? Qarşıda yenə bu haqda nəqllər olacaqdır.

**Üçüncü sual: İslam alimləri zəlzələ haqqında nə deyirlər?**

**Cavab:** İslam alimləri zəlzələlər və digər fəlakətlər haqqında doğru bildiklərini demiş, Quran və sünnədə varid olan dəlillərdən kənara çıxmamışlar. Alimlərin sözlərini toplamağa çalışan bir kimsə görə bilər ki, fətvalarda "zəlzələ ümumi bəlalardandır", "zəlzələ Allahın bəndələrini qorxutmasıdır, tövbəyə, istiğfara dəvət etməsidir", "zəlzələ Allahın insanlara xəbərdarlığı, bir xatırlatmadır", "Zəlzələlər Allahın qullarından yaxşı və pisi ayırd etməsi üçün bir imtahandır" və s. şəri izah

---

[10] (İbn Əbid-Dunya. Uqubət. səh. 31).

verdiklərini görərik. Bu izahların hər biri eyni mənaya dəlalət edir və buradakı ilahi iradəni təsdiqləyir.

İslam alimləri zəlzələnin təkcə şəri səbəbini qeyd etməklə kifayətlənməmiş, Allahın iznilə baş verən kövni qədərlə (və ya təbii) səbəbini də izah etməyə çalışmışlar. İlk öncə gəlin zəlzələnin şəri səbəbi haqda onlardan bəzilərinin sözlərini qeyd edək, sonra isə kövni qədərlə (və ya təbii) səbəbi haqda sözlərini qeyd edək:

## ZƏLZƏLƏNİN ŞƏRİ (DİNİ) SƏBƏBİ:

Səhabələrdən Ömər ibn Xəttabın (رضي الله عنه) sözü (Mədinə zəlzələsi zamanı) artıq yuxarıda qeyd edildi.
Ömər ibn Əbdüləzizin ilk (hicri tarixlə 99-100-cü illər arası) fikrinə artıq işarə edildi.

Ən çox hədis rəvayət edən səhabə Əbu Hüreyrə (رضي الله عنه) zəlzələnin səbəblərini günah və asiliklərdə görmüşdür. Onun bu sözləri deməsi nəql edilir: "Titrəyişlərin dağıtmayacağı - sizi saxlayacaq - evləri tapa bilməyəcəyiniz vaxta az qalıb"[11].

Tabeinlərdən olan Kəb əl-Əhbar (رضي الله عنه) demişdir: "Yer üzündə zəlzələnin olması yalnız orada günahlar baş verdiyi zaman olur"[12].

---

[11] (Kitabul-Fitən. Nueym ibn Həmməd əl-Mərvəzi. səh. 372).
[12] (əd-Dəu vəd-Dəva. İbn Qeyyim. 138).

Sonrakı dövr alimləri də zəlzələnin şəri səbəbini eyni mənaya yozmuşlar. Bu nəqlləri uzatmaq istəmirik. Sadəcə onlardan bu haqda danışmış bəzi alimlərin adlarını qeyd etmək yerinə düşərdi: Şeyxulislam İbn Teymiyyə, ibn Qeyyim, İbn Kəsir, əs-Suyuti, Abdur-Rahman əs-Sədi, müasirlərdən İbn Useymin, İbn Bəz, İbn Cibrin və yüzlərlə alimin adını çəkmək olar. Əs-Suyuti hicrətin 233-cü ilində Dəməşqdə baş verən dəhşətli zəlzələ haqqında deyir: "Dəməşqdə zəlzələ oldu… körpülər və evlər çökdü…İnsanlar namazgaha doğru çıxaraq sabahın yarısına kimi Allaha yalvarıb dua etdilər və dünya sakitləşdi"[13].

Sonra eyni mənbədə qeyd edir ki, hicrətin 344-cü ilində Misirdə şiddətli bir zəlzələ baş verdi. Evlər dağıldı, insanlar qorxuya düşdülər, Allaha dua edib yalvarmağa yönəldilər.

## ZƏLZƏLƏNİN TƏBİİ SƏBƏBİ (KÖVNİ QƏDƏRLƏ BAĞLI SƏBƏB):

Zəlzələnin yerin altında gedən proseslərdən olmasını əsrlər öncə İbn Teymiyyə, ibn Qeyyim və s. alimlər izah etmişlər ki, bu izahlar eynilə müasir elmin zəlzələyə verdiyi izahı ehtiva edir. Bu da İslam alimlərinin məsələlərə necə geniş yanaşmasını göstərir. İndi isə zəlzələni iki aspektdən (şəri və təbii) izah edən iki alimin sözüylə suala cavabı yekunlaşdıraq;

---

[13] ("Kəşfus-Salsala an Vasfiz-Zəlzələ" kitabı).

İbn Teymiyyə (رحمه الله) demişdir: "Zəlzələlər Allahın öz bəndələrini qorxutduğu ayətlərdəndir. Necə ki, onları günəş tutulması və başqa ayətlərlə qorxudur. Bu hadisələrin səbəbləri və hikmətləri vardır. Bunun hikməti: Allahın öz bəndələrini qorxutduğu ayətlərdən olmasıdır. Bu hadisələrin (təbii) səbəblərindən: yerin boşluğunda (süxurlar arasında - tərc) havanın sıxışmasıdır. Necə ki, külək (və ya hava) və su dar bir yerdə sıxışır, təziq artdıqca (sıxılma artdıqca) çıxmağa bir yer axtarır. Beləcə, yer yarılır və həmin əraziyə yaxın yerlərdə zəlzələ baş verir"[14].

İbn Qeyyim (رحمه الله) demişdir: "O zaman ki, (yerin altında) külək (və ya hava təziqi) hərəkət edir və yerin daxilindəki boşluqlara daxil olur, bu zaman qaz halında olan buxarlar əmələ gəlir və küləklər (və ya hava təziqi) hərəkətə gəlir və gözlənilmədən - Allahın iznilə - (bu hava kütləsi üçün yerin altından) bəzi hallarda bir çıxış yolu əmələ gəlir ki, bununla yer nəfəs alır. Beləcə, böyük zəlzələlər əmələ gəlir. Bununla da bəzi sələflərin dedikləri kimi: bəndələrdə qorxu, Allaha qayıdış, günahlardan üz döndərmə, Allaha yalvarma və peşmançılıq əmələ gəlir"[15].

Bu iki alimin əsrlər öncə dediyi elmi həqiqətlər zəlzələnin Allahın iznilə təbii baş vermə səbəbini necə də gözəl izah edir! Bu izahlar müasir Seysmologiya və Geologiya elmlərinin verdiyi izahlara necə də bənzəyir!

---

[14] (Məcmu'ul-Fətə'va. 24/264).
[15] (Miftəhu Dəris-Səadət. İbn Qeyyim. 1/221).

Bu mövzuda əsas məqamlardan biri də odur ki, müasir ilahiyyatçılardan bəzilərinin zəlzələ haqqında verdiyi izahlarda Quran ayələrinin, hədislərin, alimlərinin sözlərinin verilməməsilə yanaşı tamamilə əqlani[16] bir yanaşma ortaya qoyulur, beləcə İslamın mövqeyi deyil, əqlanilərin (ağılı şəriət dəlillərindən önə çəkənlərin) mövqeyi müdafiə edilir. Bu haqda qarşıda danışacağıq.

**Dördüncü sual: Zəlzələ olduğu zaman nə etmək lazımdır?**

**Cavab:** Zəlzələ, günəş və ay tutulması və ya digər təbiətdə - Allahın iznilə - baş verən hadisələr olduğu zaman insana etməsi gərəkən əməllər; qulluğun gərəyi olaraq tövbəyə tələsmək, Allaha yalvarmaq, ona sığınmaq, ondan salamatlıq diləmək, onu zikr etməyi və ondan bağışlanma diləməyi çoxaltmaqdır. Necə ki, peyğəmbərimiz Muhəmməd (صلى الله عليه وسلم) kusuf (günəş tutulması) hadisəsi olduğu zaman buyurmuşdur: "Belə bir hal gördüyünüz zaman Allahın zikrinə, dua etməyə və ondan bağışlanma diləməyə sığının"[17].

Peyğəmbərin səhih hədisdəki bu tövsiyəsi ehmal edilməli deyil. Bu tövsiyənin zəlzələnin şəri səbəbi ilə də

---

[16] **Əqlanilik**: Dini məsələlərə əqli yanaşma prinsipini İslami mənbələrə əsaslanmaqdan önə çəkən bir cərayandır.
[17] (Buxari. 2/30; Muslim. 2/628).

əlaqəsi var. Zəlzələ baş verdikdə də xüsusi namaz və xütbə yoxdur. Bu hədisdəki tövsiyələrə əməl edilsə, kifayət edər.

Həmçinin bəyənilən əməllərdən kasıb və miskinlərə rəhimli davranmaq, sədəqə vermək, zəlzələdən zərər çəkənlərə yardım etməkdir. Peyğəmbər (صلى الله عليه وسلم) buyurub: "Rəhm edin ki, rəhm olunasınız"[18].

Əgər zəlzələnin uçqun kimi nəticələri varsa, bu zaman xilasetmə və digər insani yardım işlərində yardım etmək çox böyük savablı əməllərdən hesab edildiyi üçün şiddətlə tövsiyə edilir.

İnsanın zəlzələdən öncə, zəlzələ əsnasında və zəlzələdən sonra edəcəyi əməllər var:

**1 -** Zəlzələdən öncə bilinməsi gərəkən məsələ bu haqda istər tədbirli olmaq, istərsə də şəri bilgilərin olması haqqındadır. Birincisini insan mütəxəssislərin məsləhətlərindən öyrənə bilər, ikincisini (şəri bilgiləri), zəlzələnin səbəbini, bəzi hikmətləri isə bu və digər yazılardan, səsli və görüntülü dərslərdən öyrənmək tövsiyə olunan əməllərdəndir.

**2 -** Zəlzələ əsnasında təhlükəsizlik üçün edilməsi gərəkən əməlləri mütəxəssislərin tövsiyələrindən öyrənmək məsləhətlidir, həmçinin bu, səbəblərdən tutunmaq baxımından düzgün təvəkkül haqda şəriətin

---

[18] (Silsilətus-Sahihə. 482).

göstərişlərinə uyğundur. Zəlzələ əsnasında insanın qurtulmaq, xilas olmaq haqqında düşünməsi təbiidir. Zəlzələ əsnasında da xüsusi bir dua və ya zikr sünnədə varid olmayıb. Lakin insan Allahdan rəhmət, yardım, sığınma istəyəcəyi sabit dualardan hansısa birini etməkdə sərbəstdir.

Zəlzələ anında ilk öncə insan tək özünü düşünməli deyil, yaşlı və zəifləri düşünüb onların təhlükəsizliyi üçün bir tədbir görməyə çalışmalıdır. Çünki bir müsəlman zəlzələ vaxtı qorxub qaçarsa, ailəsini, yaxınlarını tərk edib birinci özü qurtulmaq istəyərsə, bir fəlakət olduğu zaman - Allah qorusun - yaxınlarından birinə bir müsibət üz verərsə, onları xilas edə biləcəyi halda bunu etməzsə, o insan daim özünü qınaya və peşman ola bilər. Ona görə də insan qəflət vaxtında zəlzələyə və s. fəlakətlərə yaxalanmaqdan Allaha sığınmalıdır.

**3 -** Zəlzələdən sonra edilməsi gərəkən əməllər isə artıq izah edildi.

**Beşinci sual: Axır zamanda zəlzələlər çoxalacaqmı?**

**Cavab:** Bəli, axır zamanda zəlzələlərin çoxalacağı haqda peyğəmbərimiz (صلى الله عليه وسلم) ümmətinə xəbər vermişdir. Bu haqda bir hədisdə o belə buyurur: "Elm

aradan qalxmadıqca, zəlzələlər çoxalmadıqca qiyamət qopmaz..."[19]. Bu hədisin tam mətnində başqa məsələlər də qeyd olunub, biz sadəcə hədisin əvvəlini cavab olaraq qeyd etdik.

İbn Həcərdən rəvayət olunur ki, o bu haqda belə demişdir: "Artıq bir çox şimal, şərq və qərb ölkələrində çoxlu zəlzələlər baş verib. Lakin, görünən budur ki, zəlzələlərin çoxluğundan qəsd edilən onun ümumiliyi və davamlı olmasıdır"[20]. Yəni tarixin başqa vaxtlarında da zəlzələlər olsa da, axır zamanda bu zəlzələlər daha çox və daha davamlı olacaq.

**Altıncı sual: Zəlzələdən qorunmaq üçün xüsusi dua varmı?**

**Cavab:** Zəlzələdən qorunmaq üçün peyğəmbərin (صلى الله عليه وسلم) sünnəsində xüsusi bir "zəlzələ duası" olmasa da, insan zəlzələdən qorunmaq üçün Allaha dua edə bilər. Sünnədə müsibətlərdən qorunmaq üçün varid olan hər hansısa duanı da etmək mümkündür.

---

[19] (Səhih əl-Buxari. 1036).
[20] (Fəthul-Bari. 31/93-94).

**Yeddinci sual: Namaz vaxtı zəlzələ olsa nə etmək lazımdır?**

**Cavab:** Namaz vaxtı zəlzələ baş verərsə, insan namazda olduğu halda namazı tərk edə bilər. Xüsusən də o insan təhlükə halını görüb təhlükənin şahidi olarsa, bu zaman böyük ehtimalla zərər görəcəyini təxmin etdiyi üçün onun namazdan çıxması lazımdır və bu halda namazı davam etdirməsi icazəli deyil. Çünki namazı sonra da qılıb tamamlaya bilər, lakin təhlükə anı bir neçə saniyədir və tədbir görməyi gərəkdirir. Uca Allah buyurur: "...öz əllərinizlə özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir"[21].

**Səkkizinci sual: Müsəlman zəlzələdən hansı hikmət və ibrətləri götürməlidir?**

**Cavab:** Bu haqda suala söhbətimizin əvvəlində zəlzələ haqda mövqeyi qısa izah edərkən demək olar ki, bir qədər cavab verildi. Lakin "bir müsəlman zəlzələdən hansı hikmətləri öyrənməli və hansı ibrətləri götürməlidir?" - deyə soruşularsa, deyərik ki, zəlzələnin hikməti onun baş vermə səbəbinin şəri cavabındadır ki, bu artıq izah edildi. İbrətlərə gəldikdə isə zəlzələdən götürüləsi ibrətlər çoxdur, ən mühüm olanlarından bəziləri isə bunlardır:

---

[21] (əl-Bəqərə. 195).

1 - Dünyanın və dünya malının fani olması.
2 - Ölümün insana nə qədər yaxın olması.
3 - Zəlzələdə insanın böyük bir sınağa çəkilməsi.
4 - Müsibət baş vermiş yerlərdə insanların yardımlaşması, yeni yaxşılıqların ortaya çıxması.
5 - Varlığın bütünlüklə Allahın ixtiyarında olmasının, Allahın böyük qüdrət sahibi olmasının və insanın nə qədər aciz olmasının xatırlanması.
6 - Bəzi qafillərin zəlzələ səbəbilə ayılması, Rəbbini unudanların doğru yola gəlməsi, dünya nemətləri gözlərini kor etmiş, axirət haqda düşünməyənlərin bir daha özünü sorğulaması.
7 - Allahın günahkarları və asiləri cəzalandırması (qeyd: iman əhli üçün bu hadisə əvvəldə qeyd etdiyimiz kimi günahlara kəffarə (təmizlənmə) və şəhidlik məqamıdır, acıların bitməsidir).
8 - Nemətlərin bəzən istidrac (tədricən haqdan uzaqlaşma) olduğunu anlamaq;

**Doqquzuncu sual:** Nə üçün zəlzələlər ancaq müsəlmanlar olan yerlərdə baş verir? Əgər Allah günahlara görə cəza verirsə, nə üçün ən çox günahlar edən kafirlərə bəlalar göndərilmir? Zəlzələnin nə üçün baş verdiyini, kimə əzab olduğunu, kimə əzab olmadığını deyə bilmərik. Peyğəmbər var idi deyirdi, biz isə deyə bilmərik.

**Cavab:** Bu sualın qoyuluşu kökündən yanlışdır və qərəzli bir sualdır. Əlxsus da əgər "elm" iddiasında olan biri tərəfindən edilərsə, onda durum daha acınacaqlıdır. Zəlzələlər təkcə müsəlman ölkələrində olmur. Görünür buna bəzi misallar çəkməli olacağıq.

İlk öncə gəlin bu hissəyə cavab verək: **"Nə üçün zəlzələlər ancaq müsəlmanlar olan yerlərdə baş verir? Əgər Allah günahlara görə cəza verirsə, nə üçün ən çox günahlar edən kafirlərə bəlalar göndərilmir?"**

***Sualın bu hissəsinə üç aspektdən cavab verəcəyik:***

**Birincisi:** Hər ölkənin öz fəlakətləri var. Fəlakətləri yalnız müsəlman ölkələrinə aid etmək böyük bir yalnışdır. Məsələn, bu yaxın illərdə Avropada sellərdən nə qədər insanlar öldü, əksər sel fəlakətləri qeyri-müsəlman ölkələrində oldu. İstəyən bu haqda araşdırmalar edə bilər. Tarixə bir azca baxış etmək kifayətdir;

Amerikanın özündə 2011-ci il təbii fəlakətlər ili elan edilmiş, təkcə soyuqdan ölənlər 1000 nəfərdən çox olmuşdur. 1985-ci ildə Amerikada "Barri" tornadosunda çoxlu sayda insan tələfatı olmuş, ölkəyə milyonlarla dollar maddi zərər dəymişdir. 1927-ci ildə ABŞ-da baş verən sel nəticəsində 700.000-dən artıq insan evsiz qalmış, yüzlərlə insan həlak olmuşdur

2005-ci il 23 avqustda başlanğıcını Atlantik okeanının Baham adalarından götürən "Katrina" adlanan sunami ABŞ-da Meksika körfəzinin ən gözəl güşəsində, Luiziana ştatının "Yeni Orlean" şəhərini bütünlüklə su altına aldı. Sunami 23 avqustdan 31 avqusta kimi davam etmiş, həmin zaman küləyin sürəti saatda 280 km-ə çatmışdır. Bu dəhşətli hadisədə ölənlərin sayı məlum deyil, 20.000-dən artıq insan itkin düşmüş, 160.000-dən artıq ev xarabaya çevrilmişdir. Həmin vaxtlar neft buruqlarının 90%-nin işi dayanmışdı. Hesablamalara görə 50 mlrd. dollar məbləğində əmlak su altında batmışdı.

Yaponiyada isə 1995-ci il yanvarın 17-də Honsü adasında zəlzələdən qorunma tədbirlərinin görülməsinə baxmayaraq 7,5 bal gücündə baş vermiş zəlzələ 6300-dən çox insanın tələfatı ilə nəticələnmiş, ölkəyə ümumilikdə 130 milyard dollar zərər dəymişdi.

İtaliyada 1908-ci ildə baş vermiş Mesina zəlzələsində 70.000 insan həlak olmuşdur.

Belə misalları çoxalda bilərik, qeyri-müsəlman ölkələrində: Çində, Tailandda, Cənubi Amerika ölkələrində və s. zaman-zaman baş verən müxtəlif dəhşətli təbii fəlakətlərdən hələ yazmadıq. Bu ölkələrdə tarix boyunca baş vermiş dəhşətli fəlakətləri internetdən rahatlıqla araşdırıb öyrənə bilərsiniz. Qarşıda bəzi fəlakətlərə yenə işarə ediləcəkdir.

**İkincisi:** Zəlzələnin baş vermə arealı əsasən dağlıq ərazilərdir. Bu ərazilər dindar, dinsiz olmaqla, müxtəlif din mənsublarına məxsus ərazilərdir və yalnız müsəlmanlara məxsus deyil. Qeyd edək ki, bu fikir onlarla təhlükəli təbii fəlakət növlərindən yalnız biri haqqındadır. Digər fəlakətlər isə dünyanın müxtəlif yerlərində baş verir. Hər il müxtəlif sel və daşqınlarda, bəzən sunamilərdə, bəzən qasırğa və fırtınalarda, bəzən vulkan püskürmələrində, bəzən də yanğınlarda və digər növ fəlakətlərdə minlərlə insanlar həyatını itirir. Hələ aclıq, qıtlıq, şiddətli istilər, şiddətli soyuqlar və s. çoxlu səbəblər də nəzərə alınarsa, bu cür şübhələrin bir əhəmiyyəti qalmaz. Hər il təkcə yol qəzalarında dünyada 300.000 insanın öldüyü təxmin edilir. Təkcə bu hal, bir il ərzində dünyada zəlzələdən ölənlərin sayı ilə müqayisə edilə bilməz. Deməli, hər kəsin qədərində bir cür ölüm var. Uca Allahın buyurduğu kimi: "Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta əlçatmaz qalalarda olsanız belə"[22].

Görünən budur ki, insanlar özlərinin səbəb olduqları ölüm hadisələrinə (qətl, müharibələr, suiqəsdlər, soyqırımlar, yol qəzaları və s) heç bu qədər diqqət yetirmir, eyni aspektdən sorğulamırlar. Bəzilərinin əsas məqsədi sadəcə dinə qarşı danışmaqdır.

**Üçüncüsü:** Allah kafirlərə bu dünyada möhlət verir. Yaxud da Allahın kafirlərə dünya naz-nemətləri verməsi bəzi müsəlmanları aldatmalı deyil. Bu haqda "Allah nə

---

[22] (Nisa. 78).

üçün kafirləri etdikləri günahlara görə dərhal cəzalandırmır?" adlı ətraflı məqaləmizi oxumağı tövsiyə edirik[23].

Sadəcə onu vurğulayaq ki, bu sualı bir dinsizin verməsi normaldır, əgər bunu bir müsəlman iddia edərsə, ona tövsiyəmiz İslam əqidəsini yaxşı öyrənmək, əqlanilərin (ağlını şəriətdən önə çəkənlərin) şübhələrindən uzaq durmaqdır. Kimliyindən asılı olmayaraq bu cür sadə bir əqidə mövzusunu anlamayıb insanları çaşdıran biri, istər sıravi şəxs olsun, istərsə də ilahiyyatçı olsun, onun xətası islah edilməli, düzəldilməlidir. Bir müsəlman İslam əqidəsinə zidd sözlər danışmaqdan həzər etməli, çəkinməlidir.

Sualın (şübhənin) ikinci hissəsinə gəldikdə isə belə deyilir: **"Zəlzələnin nə üçün baş verdiyini, kimə əzab, kimə əzab olmadığını deyə bilmərik. Peyğəmbər var idi deyirdi, biz isə deyə bilmərik".**

**Cavab:** Bu şübhə də tarix boyu İslam alimlərinin üzərində olduğu fikrə, cavaba müxalifdir. Bunu bir neçə aspektdən izah etmək olar:

**1 -** Quran və sünnə dəlilləri bu şübhənin düyünlərini çözür. Artıq mövzunun əvvəlində Quran ayələrinin, hədislərin, alimlərin sözlərinin və izahlarının şahidi

---

[23] Suala ətraflı cavabı bu keçiddən oxuya bilərsiniz: http://sunna.az/content?cid=628

olduq. Bütün bu izahlar isə dinin sağlam qaynaqlarına, sağlam dəlillərə əsaslanır. Sualda deyilən iddia isə heç bir dini mənbəyə deyil, əqli mühakiməyə əsaslanır. Əlbəttə ki, din ağıla zidd deyil. Sağlam ağıl dini, din də sağlam ağlı təsdiqləyir. Lakin bu iddianın məntiqi nəticəsi Quran ayələrinin, hədislərin zahirinin və əsrlər boyunca İslam alimlərinin üzərində olduğu görüşü yalanlamaqdan ibarətdir. Bu şübhəni gətirən kimsənin qəsdində belə bir niyyət, həmçinin zəlzələdə Allahın iradəsinin inkarı olmasa da, iddia etdiyi görüşün məntiqi nəticəsi kənardan onu belə bir batil fikrə dəstək verdiyi təsəvvürü yaradır.

**2 -** Bu iddia sahibi guya dinin mövqeyini ortaya qoyub müdafiə etmək istəyir , əksinə, bu iddia dinin mövqeyini bilmədən edilmiş iddiadır. Çünki sağlam iddia olsaydı, birincisi, mötəbər İslami mənbələrlə uyğunluq təşkil edərdi, İslami qaynaqlara əsaslanardı. İkincisi isə İslam əqidəsində zəlzələyə verilmiş şəri izah yanlış, təhrif edilmiş şəkildə ortaya qoyulmazdı.

İddianı irəli sürənlər belə bir suallar verirlər: Zəlzələ ibrətdirmi? Zəlzələ əzabdırmı? Zəlzələ cəzadırmı? və s. Bu insanların ən böyük problemi İslam alimlərinin əqidə kitablarından, həmçinin alimlərin elementar sözləri ilə tanış olmamalarıdır. Nəticə isə bərbad və əqlani bir yanaşmaya gətirib çıxarır. Əgər bu iddia sahibləri əvvəldə qeyd etdiyimiz İslam alimlərinin az qala icma etdikləri bu mövqeyini bilsəydilər, belə saçma və batil izahlara da baş vurmazdılar.

İslami qaynaqlara əsaslanan müdafiə etdiyimiz mövqe zəlzələni mömin üçün bir rəhmət, kafir üçün əzab olduğunu vurğulayır. Bu mövqe insanı batil mövqedə olanların düşündüyü kimi "ya zəlzələnin hamıya əzab olduğunu deməlisən, ya da bu məsələyə girişib ağır suallar qarşısında aciz qalmalısan", - deyə safsata fikirlərə, yanlış məntiqi nəticələrə gəlməkdən qoruyur. Üstəlik də bu yanlış mövqedə olanların ən böyük cahilliyi sağlam İslami mənbələrə əsaslanan bu mövqeni "Allaha iftira atmaq", yaxud da "kahinlik" kimi vəsf etmələridir. Madam ki, bu qədər dəlillər görməzlikdən gəlinir, İslam alimlərinin sözləri dəyərsizləşdirilir, belə "əqlani məntiqlə düşünən" insanların özlərinin fikirləri və iddiaları dəyərsiz olacaq, İslamın ruhuna zidd şəkildə, cahilcəsinə İslami mövqeyə qarşı "yanlış reformist, cürətli çıxışlar" müsəlmanların elmi mirası önündə çöküşə uğrayacaqdır.

Bəli, əvvəldə qeyd etdiyimiz kimi, batil mövqeyə qarşı olan İslami mövqe İslami dəlillərə əsasən qısa olaraq belədir: "Bilmək lazımdır ki, zəlzələlər, günəşin, ayın tutulması və s. təbiət hadisələri Allahın iradəsi, izni ilə baş verir və bu hadisələr Allahın ayətlərindəndir. Uca Allah Qurani-Kərimdə buyurur: "Biz ayətləri yalnız qorxutmaq üçün göndəririk"[24]. Allah öz qüdrətinə dəlalət edən ayətləri göndərir ki, insanlar ibrət alsınlar, ayılsınlar. Böyük fəlakətlər gəlmiş yerlərdə sağ qalan insanlar həyatın mənasını başa düşür, bütün yığdıqları dünyalığın günahlar, asiliklər və şirk səbəbilə bir an

[24] (İsra. 59).

içində yox ola biləcəyini anlayır və Allaha üz tutaraq tövbə edir. Bəla gəlməmiş insanlar isə bəla gəlmiş insanların halına baxır, beləliklə bu, digər bölgələrdəki insanlar üçün də bir xəbərdarlıq olur. İslam alimləri zəlzələnin şəri səbəbi haqqında "zəlzələlərin baş vermə səbəbi günahlar və asiliklərdir" deyə bildirirlər. Əgər fəlakətlərdə ölən insanlar mömindirlərsə, bu onların günahlarına kəffarə və şəhidlik dərəcəsi olur. Müsəlmanın başına nə gəlirsə, onun üçün xeyir olur, hətta ayağına batan bir tikan belə onun günahlarına kəffarədir. Yox əgər zəlzələdə ölən kimsə kafirdirsə, bu onun üçün cəza, sağ qalanlar üçün isə ibrət, öyüd-nəsihət və qorxutmadır". Deməli, bu İslami mövqedə zəlzələnin müsəlmana rəhmət, kafirə əzab ola biləcəyini bilməyən şəxs "cəza və əzab" mövzusunun təyinatı kimi incə məsələdə çaşbaş qalır, çaşması az deyilmiş kimi başqalarını da çaşdırmağa cürət edir. Azmaqdan və azdırmaqdan, elmsiz danışmaqdan Allaha sığınırıq!

**3 -** Yaponların mübarizəsi, zəlzələnin təsirini azaltmaq məsələsi: Sualı qoyanlar belə bir iddia da gətirirlər ki, "məgər bütün zəlzələlər ilahi cəzanın, ilahi qədərin ifadəsidirmi?" Sonra isə yenə qədər mövzusunda əqlani yanaşma edilərək dolayısı yolla ya qədər inkar edilir, ya da İslam əqisinə görə kafirlər üçün zəlzələnin cəza mahiyyətində olması inkar edilir. Əvvəlcə belələrinə bir daha əqidə kitabları oxumağı tövsiyə edirik. Sonra isə deyirik, belə deyənlər unudurlar ki, yaponlar gördükləri bütün tədbirlər nəticəsində yenə də şiddətli zəlzələ baş verdikdə yüzlərlə, minlərlə insan həyatını itirirlər.

Zəlzələyə qarşı kafirin tədbir görməsinin qədərə qarşı bir təsiri yoxdur. Çünki baş verən hadisə özü qədərdən hesab edilir. Bunu anlamayan insan isə elə bilir ki, yaponlar zəlzələnin təsirini azalda bilirsə, deməli qədərə mane olur, bu isə "guya İslama qarşı bir arqumentə çevrilir". Onlar yəqin ki, Allahın qeyri-müsəlmanların da Allahı olduğunu unutmurlar. Həmçinin unutmaq lazım deyil ki, yaponlar zəlzələnin gücünü deyil, nəticəsini sağlam yollarla aradan qaldırmağa çalışırlar. Bu da çox mühüm məsələdir. Keçmiş ümmətlərdə də bəladan qorunmaq üçün dağlarda oyuqlar açanlar var idi. Lakin Allah Quran ayələrində onlara meydan oxuyur, gördükləri tədbirlərin onları ölümdən xilas edə bilmədiyini xatırladır.

Yaponlar nə etsələr də zəlzələnin özünün qarşısını ala bilməyəcəklər. Yaponlar nə etsələr də zəlzələlərdə ölüm hallarını aradan qaldıra bilməyəcəklər. Məsələn, elə ən yaxın tarixdə 2011-ci ildə də Yaponiyada zəlzələ əleyhinə güclü tədbirlər görülmüşdü. Lakin Allahın əzabının qarşısını yenə ala bilmədilər. Bu dəfə yaponları gözləmədikləri yerdən sunami yaxaladı. Tikdikləri möhkəm binaların da faydası olmadı və 20.000-ə yaxın insan tələfatı oldu[25].

Bundan öncə isə 1995-ci il yanvarın 17-də Honsü adasında zəlzələdən qorunma tədbirlərinin görülməsinə baxmayaraq 7,5 bal gücündə baş vermiş zəlzələ 6300

---

[25] (Ətraflı bax: BBC News Azərbaycanca saytı. "Yaponiyada dəhşətli zəlzələnin ildönümü qeyd olunur" adlı məqalə. 2012).

insanın tələfatı ilə nəticələnmişdi. Möhkəm tikilən binalarla rəğmən Yaponiya yenə dünyada fəlakətlərdə ən çox can itkisi olan yerlərdən olursa, bu da Allahın bir qədəridir. Yaponiyada "olduqca acınacaqlı bir hadisə o oldu ki, zəlzələ zamanı insan itkisini azaltmaq üçün ağacdan tikilmiş evlər xeyli ziyan vurdu. Kobedəki zəlzələdən əvvəl dağılan evlərin əksəriyyəti taxta konstruksiyalardan ibarət olub. İki həftə davam edən yanğınlarda ən böyük itkini yaponlar verib"[26].

Zəlzələ proqnozları ilə bağlı vəziyyət heç də ürəkaçan deyil. Bunu "Respublika Seysmoloji Xidmət Mərkəzi"nin şöbə müdiri Tahir Məmmədov bu yaxınlarda İctimai TV-də çox mühüm bir çıxışında bildirib. Deməli, o bildirib ki, Çin alimləri 70-ci illərdə zəlzələnin proqnozunu verib bir dəfə insanları xilas edirlər, növbəti dəfə proqnoz səhv çıxır və məhz insanları xilas etmək üçün yerləşdirdikləri yerdə 200.000 nəfər insanın həlak olmasına səbəb olan zəlzələ baş verir. Gördüyünüz kimi olacaqdan qurtulmaq mümkün deyil.

Yaponlar nə etsələr də öldükdə - müsəlman olanları xaric olmaqla - Allahın hüzuruna qeyri-müsəlman kimi gedəcəklər. Üstəlik də kim deyir ki, Allah bu dünyada bütün kafirləri cəzalandırır? "Möhlət məsələsi" haqqında danışdıq ki, Allahın bu dünyada kafirlərə verdiyi xüsusi möhləti də var. O möhlət ki, Qiyamət günü onların əleyhinə olacaq. Uca Allah buyurur:

---

[26] (Demedia.az saytı. "Zəlzələdən sonra ölkədə nə dəyişdi?" adlı məqalə. 13.02.2023).

"Əgər Allah insanları etdikləri günahlara görə dərhal cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı"[27]. Bu ayətlərdən üz döndərən və ya xəbərsiz olan biri, əlbəttə ki, ziddiyyətli sözlər danışıb İslami mövqeni təhrif edəcəkdir.

Bu ayədə isə: "Lakin Allah onlara müəyyən vaxtadək möhlət verir", - deyə işarə edərək bildirmişdir ki, Allah möhlət verir, lakin unutmur.

Möminin halı isə belə deyil. Allah mömini bu dünyada ikən təmizləyir, günahlarına kəffarələr lütf edir. Nə üçün belə məsələlərə İslami aspektdən izahlar varkən, bu izahların hamısı tərk olunmalı, əvəzində isə iki-üç ateistin məntiqi önə çəkilməlidir? Özünə "müsəlman", "ilahiyyatçı" deyən kəs bunu edirsə, biz cahil, sıravi insanlardan və ya sıravi müsəlmanlardan hansı salamat fikirləri gözləməliyik?

**4 -** Allah bizə həlak olmuş neçə qüvvətli qövmləri xatırladır. Bu haqda Quran ayətləri çoxlarına məlumdur. Uca Allah buyurur: "Məgər onlar özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi? Biz onlara yer üzündə sizə vermədiyimiz imkanları vermişdik"[28]. Bəli, ayətdə deyildiyi kimi əvvəlki qövmlərdə də bizdə olmayan imkanlar ola bilər. Elə yaponların özlərində də həmin imkanlar ola bilər. Allah

---

[27] (Fatir, 45).
[28] (Ənam. 6).

bunun mümkünlüyünü bizə zatən özü Quranda xatırladıb. Təəssüflər olsun ki, şübhələr önündə - kimliyindən asılı olmayaraq - imanı zəifləmiş müsəlmanlar, ayda-ildə bir dəfə bu kitabın üzünü açanlar Quranda verilən mesajlardan xəbərsizdirlər.

Dünya tarixində ən çox can itkisi olan zəlzələnin də ən çox insan yaşayan Çində baş verməsi sizcə heç düşündürücü deyilmi? "Şensi" zəlzələsi Çində baş vermişdir. Tarixdə ən çox insan tələfatına səbəb olan bu zəlzələ hadisəsi 1556-cı il 23 yanvar günü Çinin şimal-qərbində baş verib. 8 bal gücündə baş verən zəlzələ zamanı 830.000 nəfər həyatını itirib. Bu bölgə əhalisinin 60%-i deməkdir. Zəlzələ zamanı bütün binalar dağılmışdı[29].

Bu qədər izahdan sonra "peyğəmbər var idi zəlzələnin kimə əzab olduğunu deyirdi, indi peyğəmbər yoxdur deyə biz deyə bilmərik" deyənlərə deyirik ki, sizin "qədər" və "hikmət" mövzularında peyğəmbərin (صلى الله عليه وسلم) yolundan, əqidəsindən uzaq düşməyinizin ən bariz nümunəsi zəlzələ haqqında yazdığınız bu cür məqalələrdə və ya danışdığınız cümlələrdə Qurana və sünnəyə müraciət edə bilməmənizdir. Arqumentləriniz isə ağlınıza gələn və dinsizlərdən təsirlənib yazdıqlarınızdır. Çünki peyğəmbərimizin zəlzələ mövzusunda inancını bilmək üçün onun haqqında xəbərləri verən mənbələrə müraciət etmək lazımdır.

---

[29] (Mənbə: Modern.az saytı. "Dünya tarixinin ən dağıdıcı zəlzələləri" adlı məqalə. 02.02.2018).

Bunu bacarmayan və sadəcə "peyğəmbər aramızda yoxdur" deyib insanları çaşdırmağa çalışan şəxs mübarək peyğəmbərin (صلى الله عليه وسلم) varisləri olan alimlərin mövcudluğunu unudur, həmçinin İslamın iki ana mənbəsi olan Qurana və sünnəyə də müraciət etmirsə, artıq məsələ bir sağlam inanclı bir müsəlman üçün çözülmüş olur.

## Onuncu sual: Nə üçün Allah uşaq və zəiflərin ölümünə icazə verir?

**Sual**: Dünyada baş verən şər hadisələrdə günahsız insanlar, zəiflər və uşaqlar öldürülür. Onların nə günahı var axı? Nəyə görə insanların törətdikləri vəhşi əməllərdə və ya təbii fəlakətlərdə günahsız canlar həlak olur? Allah bunların ölümünə niyə müdaxilə etmir?

**Cavab**: Ümumiyyətlə, insanlar arasında yanlış bir anlayış var ki, günahsız insanların, uşaq və zəiflərin başına şər hadisə gəlməsi və ya onların acı çəkməsi mümkün olmalı deyil. Çünki onlar buna layiq deyillər və ya elə bir iş görməyiblər ki, başlarına şər hadisə gəlsin və ya acı çəksinlər. Xüsusən də uşaqlar və körpələri qeyd edirlər.

Problem isə yalnız bunda deyil. Bəzi insanlar onların acısına, iztirabına həddən çox fikir verirlər, lakin bu dəfə kimisə günahkar çıxarmağa və ya təqsirləndirməyə başlayırlar. Səbəbkarı təqsirləndirmək üçün isə birinci səbəbi bilmək lazımdır. Məsələn, Suriya müharibəsində

göydən yağan bombaları hər halda Allah yağdırmırdı. (Bütün işlərdə Allahın icazəsi olsa da, şər işlər Allaha nisbət edilə bilməz). Bu bombaları insan əqlinin inkişafı nəticəsində yüksək texniki vəziyyətdə olan döyüş təyyarələri atır. Təsəvvüredin ki, vaxtı ilə təyyarədən insanların başına bomba yağdıran birinin övladı gələcəkdə böyüyüb dinsiz olur və uşaqların ölümündə öz bombardmançı atasını deyil, Allahı təqsirli görür. Bu halda ondan soruşurlar ki, bombaları atıb körpə uşaqların ölümünə sənin atan səbəb olmayıbmı? Sən niyə Allahı suçlayırsan? Həmin adamın isə: "Allah gərək buna icazə verməzdi" deməsi kimi absurd bir iddiadan ibarətdir. Yəqin ki, məsələ daha yaxşı anlaşıldı.

Yaxşı, indi isə görək Allahın hansısa hadisəyə müdaxilə etməməsinə görə biz Allahı ittiham edə bilərikmi? Görəsən, biz əslində kimisə təqsirləndirməliyikmi? Əgər təqsirləndirəcəyiksə, uşaqları bombalayan insan övladını təqsirləndirməliyik? Yoxsa, Allahı?

Birdən sual olsa ki, təbii fəlakətlərdə ölənlər necə olsun bəs? Onda suala daha ümumi cavab verməzdən əvvəl deyirik ki, uşaq və zəiflərin ölümü müxtəlif səbəblərdən olur. Bu bir maşın qəzasında da ola bilər, bir zəlzələdə də ola bilər. Biz bəşər övladı olaraq sosial şəbəkələrdən eşitdiyimiz xəbərlərdə zəlzələ fəlakətlərində günlərlə heç nə yeyib içmədən dağıntılar altında qalmış uşaqların da sağ-salamat qalmasının dəfələrlə şahidi olmuş, izləmişik.

Hər bir insanın həyatında xoşbəxt və bədbəxt hadisələr olur. Bəzi insanlar xoşbəxt hadisələrə Allahın müdaxilə etməsini istəmədikləri halda, bədbəxt hadisələrə Allahın müdaxilə etməsini istəyirlər. Bir sözlə yalnız xoşbəxtliyin olduğu cənnət kimi bir yer istəyirlər. İnsan ən birinci dünya adlanan və əbədi olmayan keçid həyatından başqa bir həyata, son mənzilə, gedəcəyini düşünməlidir. Uşaqların fitrət üzərində ölməsi halında Cənnətə gedəcəklərindən hələ danışmırıq, ola bilsin ki, onlardan bəziləri yaşasaydılar həmin qazanacaqları cənnəti də itirə bilərdilər.

Deməli, bu cür hallarda günahkar axtarmaqla bir növ insanlar düşdükləri emosional durumundan çıxış yolu axtarırlar. Sanki kimisə ittiham etməklə problem qurtarır. Əslində isə belə deyil. Təbii ki, Yaradanı bu hadisələrdə suçlamaq ya imanı və elmi zəif insanlar tərəfindən baş verir, ya da ümumiyyətlə dinlə əlaqəsi olmayan şəxslər tərəfindən baş verir. Onlar belə düşünürlər ki, yaradan onları qorumağa qadirdisə, bu kimi hallar niyə baş verir? Bu düşüncə yanlışdır;

**Birincisi**: Ona görə ki imtahan dünyası ümumidir, lakin insanın əbədi qalacağı yer deyil. Əbədi qalınacaq yerdə Allah hər kəsi layiq olduğu yerə yerləşdirəcək, günahsız ölən körpələr də dünyanın bir çox sıxıntısını görmədən əbədi səadətə çata biləcəklər. Bu dünya həyatı mərhələsini kimisi bir gün, kimisi beş il, kimisi altmış il və s. qalmaqla başa vurur. Bəzən altmış il yaşayan insan pis əməllərinə görə cənnəti itirir, beş il yaşayıb ölən uşaq isə Cənnətə düşür. Bunlar nisbi

məsələlərdir və şərt dünyada çox qalmaq deyil. Ona görə də bəzi insanlar yaşadıqca günahlarının çoxaldığı üçün heç dirilməməyi tələnna edəcək: O gün insan öz əlləri ilə nələr etdiyini görəcək, kafir isə deyəcəkdir: “Kaş mən torpaq olaydım!”[30]. Deməli, o insanların yaşamaları heç də xeyirlərinə olmadı və yollarını azdılar. Ona görə də insanın aşağı yaşı hesab olunan illərində ölən uşaqların əgər yaşasaydı, yaxşı və ya pis insan olacağını - Allahdan başqa - heç kim bilmir.

Biz dünyanın imtahan yeri olduğunu, imtahan olunmadan bu keçid diyarından əbədi həyata gedənlərin yüklənmədən getdiklərini və əsas təhlükədən xilas olduqlarını deyirik. Eyni zamanda körpəyə və ya uşağa üz verən ağrı-acının, o böyüyəndə də istəlinən yaş həddində üz verə biləcəyini bilmək gərəkir. Günahsız yerə öldürülənlər və zəiflərin ölümü də onların bu kədərlərlə dolu dünyadan daha xoşbəxt bir aləmə getmələrilə nəticələnir. Onlar bu dünyanın hüzünlərindən rahatlayır və başqa rahat aləmə gedirlər. Muhəmməd peyğəmbər (sallallahu aleyhi və səlləm) bir dəfə bir cənazənin şahidi olur və buyurur: "Rahatladı və ondan rahatladılar". (Səhabələr) dedilər: "Ey Allahın Elçisi! Bu rahatlanan və özündən rahat qalınan nə deməkdir?" (Peyğəmbər) dedi: "Mömin qul dünyanın yorğunluğundan və əziyyətindən Allahın rəhmətinə getməklə rahatlayır. Günahkar kimsəyə gəldikdə isə

[30] (Nəbə, 40).

onun şərrindən insanlar, ölkələr, ağaclar və heyvanlar rahatlayır"[31].

Bu məqamda hər bir şərin xeyirli tərəfinin olması, xalis şərin olmaması amili də nəzərə alınmalıdır.

**İkincisi**: Bəzi insanlar özlərinin hadisələrə "emosional reaksiya vermələrini və şəfqətlərini" Allahın hadisələrə yanaşması ilə eyni tutur, müqayisə etməyə çalışırlar. Eyni zamanda Allahın ad və sifətlərini bilmədikləri üçün Onun "yazığı gəlməsinin, acımasının, rəhmətinin" insanlardakı "yazığı gəlmə və rəhmət" hissləriylə eyni tutur və ya müqayisə etməyə çalışırlar. Şəkk yoxdur ki, Kainatın yaradıcısı olan Allah məxluqlarla bərabər tutula bilməz və məxluqun hissiyyatı olduğu kimi Allaha nisbət oluna bilməz. Mütləq ki, Yaradıcı və yaradılmışların fərqi var və olmalıdır da. Lakin bu o demək deyil ki, Allah kainatı başlı-başına buraxmışdır. Bununla yanaşı qeyd olunduğu kimi dünya cənnət deyil ki, burada heç bir pis hal, zülm, haqsızlıq və şərin növləri olmasın.

Uşaqlara gəldikdə isə insanların onlara daha çox yazığı gəlməsi onların yaşlarının az olmasına görədir, başqa bir şeyə görə deyil. Çünki böyüklər də ağrılara, iztirablara və xəstəliklərə tuş gəlirlər, lakin biz eyni (uşaqlar üçün edilən) reaksiyanı onların durumuna münasibətdə müşahidə edə bilmirik. Ona görə də əgər belə demək doğru olarsa, bu cür düşünərək Allahı ittiham etmək mövzuya dəxli olmayan düşüncə tərzidir.

[31] (Buxari, 6147; Muslim, 950).

Lakin bilmək lazımdır ki, hər kimin başına belə bir hadisə gələr, (uşaq ölümü) və o səbir edərsə, o kimsə buna görə savab qazanar. Kim də səbr etməzsə, zərəri özünə olar. Eləcə də kim uşağa və körpəyə əziyyət verərsə və ya buna qəsdən səbəb olarsa, o kəs bu əməlin məsuliyyətini daşıyır və qiyamət günü Allah ondan o uşağın intiqamını alar.

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə demişdir:

"Bir insanın uşağı öldükdə Allah mələklərinə deyər: Qulumun övladının canını aldınızmı? (Mələklər) deyərlər: Bəli. Allah deyər: Onun qəlbinin meyvəsinimi aldınız? (Mələklər) deyərlər: Bəli. Allah deyər: Qulum nə dedi? (Mələklər) deyərlər: "Sənə həmd-sənalar etdi və innə lilləhi va innə ileyhi raciun!" - dedi. Allah deyər: Qulum üçün cənnətdə bir ev inşa edin və onu Həmd evi adlandırın"[32].

Fikir versəniz, bu ilahi hədisdə Allah buyurur: "Onun qəlbinin meyvəsinimi aldınız?" Bu elə bir vəsfdir ki, bunu yalnız Allahın övlad verdiyi kimsələr anlaya bilərlər. İnsan bu övlad nemətini itirdiyi zaman bu müsibətə səbir edərsə, böyük savab qazanar. Bəs sonra nə? Sonra isə əgər özü və övladı cənnət əhlindən olsalar, Allah onları cənnətdə bir arada cəm edər. Beləcə, uşaq ölümünə

---

[32] (Sünən ət-Tirmizi, 1021).

səbr etmək o uşaqların valideynləri və yaxınlarının cənnətdə bir araya gəlmələrinin bir yoludur.

Muhəmməd peyğəmbər (sallallahu aleyhi və sələm) özü də uşaq ikən atasını görmədən öncə atası ölmüş, anası isə o balaca uşaq olarkən (6 yaşında olarkən) vəfat etmişdi. Sonra isə babası ölmüşdü. Peyğəmbər olduqdan sonra onu böyüdən əmisi dünyasını dəyişdi. Həyat yoldaşı Xədicə vəfat etdi. Sonra əmisi Həmzə vəfat etdi. Ardınca da bir çox yaxın səhabələri. Əsasən də oğlu İbrahim bir yaş yarımı keçməmişdi ki, vəfat etdi. Peyğəmbər səbr etdi, ağladı və gözlərindən yaş gələrək belə dedi:

"Həqiqətən də gözdən yaş gələr, qəlb kədərlənər, yalnız Rəbbimizi razı salan söz deyərik. Ey İbrahim! Həqiqətən də biz səninlə ayrılığa kədərliyik!"[33].

Muhəmməd peyğəmbər (Sallallahu aleyhi və səlləm) də yaxın qohumlarının və ən əsası bir yaş yarımlıq oğlu İbrahimi itirməklə imtahan olunsa da, insanlara bir qəzavü-qədərə razılıq nümunəsi oldu.

Sonda Allahın Elçisi Muhəmmədə, onun əshabına və əhli beytinə Allahın salavatı və salamı olsun. Daha düzünü Allah bilir!

Allahdan diləyirəm ki, bu kiçik risaləni oxucular üçün faydalı etsin! Mövzu Türkiyə və Suriyada baş vermiş

[33] (Buxari, 1220; Muslim, 4279).

dəhşətli zəlzələdən bir neçə gün sonra qələmə alınmışdır. Allahdan türk və suriyalı qardaş və bacılarımızdan zəlzələdən əziyyət çəkənlərə səbir, ölənlərə rəhmət və cənnət, yaralılara, xəstələrə isə acil şəfalar diləyirəm!

Sonda Həmd olsun aləmlərin Rəbbi olan Allaha!

# Kitabçanın içindəkilər:

Zəlzələ haqqında 10 sual……………………………2
Zəlzələ haqqında qısa mövqe necə olmalıdır?.......3
Bu mövqeyimizin Quran və sünnətdən dəlilləri nələrdir?..................................................................4
İslam alimləri zəlzələ haqda nələr deyirlər?.......... .7
Zəlzələ olduğu zaman nə etmək lazımdır?.......... .11
Axır zamanda zəlzələlər çoxalacaqmı?........... .....13
Zəlzələdən qorunmaq üçün xüsusi dua varmı?..................................................................14
Namaz vaxtı zəlzələ olsa nə etmək lazımdır?.... ..15
Müsəlman zəlzələdən hansı hikmət və ibrətləri götürməlidir?........................................................15
Zəlzələ haqqında bəzi "şübhələrə" aydınlıq:
Nə üçün Nə üçün zəlzələlər ancaq müsəlmanlar olan yerlərdə baş verir? Əgər Allah günahlara görə cəza verirsə, nə üçün ən çox günahlar edən kafirlərə bəlalar göndərilmir? Zəlzələnin nə üçün baş verdiyini, kimə əzab olduğunu, kimə əzab olmadığını deyə bilmərik. Peyğəmbər var idi deyirdi, biz isə deyə bilmərik............................................15
Nə üçün Allah uşaq və zəiflərin ölümünə icazə verir?..................................................................27
Kitabın içindəkilər……………………………………36
Qeydlər……………………………………………… 37

# Qeydlər

# Qeydlər

**Qeyd:** Hörmətli oxucular! Əlinizdə olan bu kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:
Sahibfarmanoglu@gmail.com

**Kitabın adı:** Zəlzələ haqqında 10 sual 10 cavab.
**Kitabın yazılma tarixi:** 2023.02.21.
**Redaktədən sonrakı tarix:** 2023.07.26.
**Kitabın səhifələrinin sayı:** 39.
**Kağız ölçüsü:** A5 (14.8cm × 21.0cm).
**Müəllif:** Sahib Fəriman oğlu Əsədov.
**Redaktor:** Rəşad Əsədli.